**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI**

***Əlyazması hüququnda***

**RİMA MÜBARİZ QIZI QAFARZADƏ**

# OQTAY SADIQZADƏ YARADICILIĞI AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİ KONTEKSTİNDƏ

İxtisas: 6215.01 – Təsviri sənət

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2013**

Dissertasiya işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının “İncəsənət tarixi” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Nigar Cərulla qızı Əsgərova**
Fəlsəfə üzrə elmlər doktoru, professor

**Elmi məsləhətçi:** **Gülrəna Qacar**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Rəsmi opponentlər:** **Arif Möhübəli oğlu Əzizov**
Əməkdar imcəsənət xadimi, professor

**Telman İsmayıl oğlu İbrahimov**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı müəssisə:** **Azərbaycan Rəssamlar İttifaqı**

Dissertasiya işinin müdafiəsi «**25**» **dekabr** **2013**-cü il tarixində saat **11:00**-da Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD.02.191. Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1029, Bakı şəhəri, Heydər Əliyev prospekti 58, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Elmi Şurasının iclas otağı

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat «**25**» **noyabr** **2013**-cü il tarixində göndərilmişdir.

**FD.02.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq üzrə**
**fəlsəfə doktoru:** **X.Z.Əsgərova**

# TƏDQİQATIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan təsviri sənətinin parlaq səhifələrindən biri olan XX əsr milli təsviri sənətin xalq ənənələrinin müxtəlif çalarları, dünya mədəniyyətinin nailiyyətləri üzərində inkişaf tapmasına əsaslı şəkildə təsir göstərdi. Təsviri sənətin yeni yaradıcılıq meyarları əsasında inkişafı özünəməxsus yaradıcılıq xüsusiyyətləri ilə fərqlənən bir sıra istedadlı rəssamların yetişməsi ilə müşayiət olunmağa başladı. Xalq rəssamı, əməkdar incəsənət xadimi Oqtay Sadıqzadənin adı onların içərisində aparıcı yerlərdən birini tutur. O, müasir Azərbaycan təsviri sənətinin formalaşmasında xüsusi xidməti olan sənətkarlardandır. "Azərbaycan rəssamlarının yaşlı nəslini təmsil edən Oqtay Sadıqzadə öz istedadlı yaşıdları Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Əbdül Xalıq və Qafar Seyfullayev ilə yanaşı, faktiki olaraq bu günə qədər bizim gələcək nəsil rəssamlarımız üçün örnək sayılan müasir Azərbaycan rəssamlığının təməlini qoymuşdur".[1]

Xalq rəssamı Oqtay Sadıqzadə rəngarəng yaradıcılıq bioqrafiyasına malikdir. O, yaradıcılığa 1939-cu ildən başlamışdır. Tarixə "sovet sosialist rejimi" kimi daxil olmuş bu və bundan sonrakı bir neçə illər Azərbaycan cəmiyyətinin sosial-siyasi, mədəni-mənəvi həyatında ziddiyyətli, təzadlı dövr kimi səciyyələndirilir. Sovet ideologiyasının totalitar mahiyyəti, şəxsiyyətə pərəstişin ifrat səviyyəsi cəmiyyətin demokratiyanın bütün prinsiplərindən uzaqlaşmasına əlverişli şərait yaratdı. Ölkənin daxilində gedən antidemokratik meyllər daha çox cəmiyyətin "qaymaqları" kimi tanınan ziyalıların həyat və fəaliyyətinə öldürücü təsir göstərdi. O dövrün ağrı-acısını öz üzərində hiss etmiş ziyalı ailələrdən biri də Sadıqzadələr ailəsi oldu. Oqtay Sadıqzadənin hələ gənclik çağlarında ikən həyatın acı tərəfləri ilə üz-üzə dayanması sonradan rəssamın fırçasına hopmuş, onun

[1] Sadıqzadə O. Rəngkarlıq, qrafika. Kataloq. Bakı:Şərq-Qərb , 2011, s.2.

yaratdığı əsərlərin böyük əksəriyyətində incə detallar, təsvir vasitələri ilə əks olunmuşdur.

O.Sadıqzadənin yaradıcılığı postsovet məkanında da yüksək qiymətləndirilmişdir. Z.Muxina, Y.Daşevski, M.Nəcəfov, S.Mirzəyeva,A.Hacıyev,Gülrəna Qacar, Z.Əliyev, A.Sadıqqızı, M.Qasımov, A.Həsənli, F.Zəkiyev, S.Elsever və başqaları rəssamın müxtəlif illərdə sərgilərdə nümayiş etdirilən portret və qrafika əsərlərində ifadə olunan məna çalarlarından vaxtaşırı mətbuat orqanlarında söz açmışlar.

Rəssamın yaradıcılığı vətənimizdən uzaqlarda, bir sıra xarici ölkələrdə də nümayiş etdirilmişdir. Onun əsərləri hal-hazırda Moskva Dövlət Tretyakov qalereyasında, Orenburqun, Lvovun, Ulyanovskun muzeylərində, həmçinin bir şox xarici ölkələrdə - Almaniya, ABŞ, Kanada, İsrail, Rusiya, Belarus və Pakistanda şəxsi kolleksiyalarda saxlanılır.

Oqtay Sadıqzadə yaradıcılığı mövzu və janr rəngarəngliyi, fərdi üslub və metodları ilə seçilir. O, daim yeni bədii təsvir vasitələri axtarır, yeniliyə can atır, ifadə tərzi ilə diqqəti cəlb edir. Onun qrafika və portret janrında yaratdığı əsərlər zənginliyi ilə yadda qalır. Obrazlarını yaratdığı şəxsiyyətlərin həyat və məişətinə, dünyagörüşünə, düşüncə tərzinə özünəməxsus baxışı O.Sadıqzadənin əsərlərinin dəyərini artırır, bu əsərləri seyr edən tamaşaçıda dərin izlər buraxır. O, keçmiş bədii irsin ən gözəl ənənələrinə və realist sənətin mütərəqqi nailiyyətlərinə əsaslanaraq, müxtəlif janr, mövzu, üslub seçimi ilə fərqlənən yüksək sənət nümunələri yaratmışdır. Bənzərsiz bədii xüsusiyyətləri qabarıq şəkildə özündə əks etdirən kompozisiya qurumu, mövzu əlvanlığı ilə fərqlənən əsərləri xalqımızın tarixi və mədəniyyəti ilə uzlaşır. Fərdi qabiliyyəti və istedadı, məqsədyönlü axtarışları, özünəməxsus emosional və orijinal təsvir vasitələri Oqtay Sadıqzadənin, Azərbaycan incəsənət tarixində xüsusi yer tutan, çoxsaylı əsərlər yaratmasına gətirib çıxarmışdır. Rəssamın əsərləri hər bir insana yaxın və aydın olan mövzulara həsr olunaraq, gözəllik, məhəbbət, incəlik, xeyir-

xahlıq haqqındadır. Bu əsərlərin hər biri üçün forma və məzmunun üzvi birliyi xasdır ki, bu da onları həqiqətən klassik əsərlər səviyyəsinə çatdırır.

Digər tərəfdən O.Sadıqzadənin əsərləri rəssamın özünəməxsus ifa tərzi, fərdi dəst-xətti haqqında fikir söyləməyə imkan yaradır. Lakin yüksək yaradıcılıq xüsusiyyətlərinə malik olan O.Sadıqzadənin yaradıcılığı elmi-nəzəri və təsviri sənət kontekstindən bu günə qədər hələ də tam və ətraflı şəkildə tədqiq olunmamışdır.

O.Sadıqzadənin yaradıcılığı Azərbaycan təsviri sənətinin inkişafı ilə sıx bağlı olduğu üçün onun yaradıcılığının elmi tədqiqatına böyük ehtiyac duyulur. Belə ki, onun müasir Azərbaycan təsviri sənətinə gətirdiyi töhfənin müəyyən olunması gənc rəssamlar nəslinin formalaşması və inkişafında mühüm əhəmiyyət kəsb edir. Məsələyə məhz bu kontekstdən baxılması tədqiqatın böyük aktuallıq kəsb etdiyini göstərir.

Beləliklə, xalq rəssamı O.Sadıqzadənin bədii irsinin bütövlükdə hərtərəfli, küll halında tədqiq edilməsi və bu problemin elmi-nəzəri kontekstdə araşdırılıb fundamental iş şəklində təqdim olunması aktual məsələ kimi müəyyənləşdirilmişdir.

**Problemin tədqiq olunma dərəcəsi.** XX əsr Azərbaycan təsviri sənətindən söhbət açan tədqiqatçıların əksəriyyəti O.Sadıqzadə yaradıcılığına diqqət yetirmiş, onun yaradıcılığı ilə bağlı xeyli araşdırmalar aparmışlar. Bu araşdırmaları iki istiqamətdə təsnif etmək olar. Bunlardan birincisinə, Oqtay Sadıqzadənin yaradıcılığına fraqmental yanaşma tərzindən irəli gələrək dövrü mətbuatda nəşr olunmuş sənətşünaslıq yönümlü və informasiya xarakterli məqalələr daxildir. Bu məqalələrdə adətən, rəssamın sərgilərindən və tərtibat verdiyi kitabların nəşri ilə bağlı yaradıcılığından bəhs edilir. Bu cür informasiyalara rəssamın hələ erkən yaradıcılığı ilə bağlı nəşr olunmuş məqalələrdə rast gəlmək olar. Xalq rəssamı Oqtay Sadıqzadə və onun yaradıcılığı haqqında müxtəlif dövrlərdə dövri mətbuatda çoxsaylı məqalələr yazılmışdır. O.Sadıqzadə yaradıcılığa başladığı ilk

illərdən özünü ümidverici rəssam kimi göstərmişdir. Rəssamın yaratdığı portretlər dövrünün görkəmli rəssamlarından M.Abdullayev, S.Salamzadə, S.Şərifzadə, H.Haqverdiyev və başqalarının əsərləri, rus rəssamlarından P.Konçalovski, B.İoqanson, S.Gerasimov kimi korifeylərin işləri ilə bərabər müxtəlif sərgilərdə nümayiş etdirilmiş və bu sərgilər mətbuat orqanlarında işıqlandırılmışdır. Eyni zamanda A.Hacıyev, F.Zakiyev, M.Qasımov, S.Mirzəyeva da öz məqalələrində O.Sadıqzadənin yaradıcılığı üzərində dayanır.

Xalq rəssamı Oqtay Sadıqzadənin yaradıcılığına həsr olunmuş araşdırmaların ikinci istiqamətinə daha əhatəli, nisbətən geniş təhlilli elmi-nəzəri tədqiqatlar daxildir ki, bunlardan Azərbaycan incəsənətinin inkişafı tarixinə müxtəlif dövrlərdə nəşr olunmuş tədqiqatları nümunə göstərmək olar. Rəssamın yaradıcılıq xüsusiyyətləri haqqında "Sovet Azərbaycanının təsviri incəsənəti", "Azərbaycan SSR-nin təsviri incəsənəti", "Azərbaycan Sovet qrafikası", "Azərbaycan incəsənəti" kitablarında qismən məlumat verilir. Lakin burada da Azərbaycan təsviri sənətinin inkişaf yolları nəzərdən keçirilsə də, O.Sadıqzadənin əsərlərindən səthi bəhs edilir. Bütün bunlar isə, sənətkarın yaradıcılığının dinamik inkişafı haqqında dolğun və obyektiv şəkildə elmi təsəvvür yaratmır. Bu istiqamətdə yalnız M.Nəcəfov və Gülrəna Qacarın tədqiqatlarını qeyd etmək olar[2].

Ayrı-ayrı sənətşünas alimlərin, o cümlədən M.Nəcəfovun, P.Hacıyevin, Z.Əliyevin və başqalarının araşdırmaları, eyni zamanda A.Həsənli, S.Cəfərova, A.Sadıqqızı, H.Zamanov, E.Nəsibli və s. kimi tədqiqatçıların qəzet və jurnal məqalələri, rəssamın əsərlərini işıqlandıran kataloqlar və albomlar istisna olmaqla, O.Sadıqzadə yaradıcılığına həsr olunmuş fundamental elmi-tədqiqat əsərləri yoxdur.

Araşdırmalar zamanı Azərbaycanda rəssamlıq sənətinin in-

---

[2] 1. Qacar G. Oqtay Sadıqzadə. Bakı, 2002, 175 s.
2. Nəcəfov M.N. Oqtay Sadıqzadə. Bakı:Azərbaycan Dövlət Nəşriyyatı, 1968, 70 s.

kişafı problemlərinin tədqiqi ilə məşğul olan sənətşünas alimlərin Oqtay Sadıqzadə yaradıcılığına biganə qalmaları da müəyyən edildi. Yalnız Mirqasımova Aysel Mirəli qızının “Azərbaycan təsviri incəsənətində portret janrı” adlı dissertasiyasında O.Sadıqzadənin portret yaradıcılığına ötəri toxunulmuş, çoxsaylı əsərlərindən yalnız üç portret müəyyən qədər təhlil edilmişdir.[3]

Qeyd edilən hər iki istiqamətdə aparılan araşdırmalar xalq rəssamı Oqtay Sadıqzadənin yaradıcılığını tam əhatə etmədiyindən onun yaradıcılığının tədqiqi məsələsi problematik səciyyə kəsb edir. Digər tərəfdən, müasir Azərbaycan təsviri sənətinin inkişaf prosesində zəngin mənəviyyatlı ziyalı və istedadlı rəssam Oqtay Sadıqzadənin çoxşaxəli və əhatəli yaradıcılığının bütün istiqamətlərinin mərhələlərlə öyrənilməsi, tədqiqi və təhlili aparılmamışdır. Odur ki, tədqiqatın problemini Azərbaycan təsviri sənəti kontekstində Oqtay Sadıqzadə yaradıcılığının öyrənilməsi kimi müəyyən etdik.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi təsviri sənət kontekstindən Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi əməkdar incəsənət xadimi, xalq rəssamı Oqtay Sadıqzadənin yaradıcılığının janr və növ baxımından əhatə dairəsinin dəqiqləşdirilərək sistemləşdirilməsindən ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı **vəzifələrin** həlli müəyyən edilmişdir:

— rəssamın yaradıcılığının inkişafına təkan verən sosial-mənəvi və bədii amillərin üzə çıxarılması və bunların sənətşünaslıq kontekstindən təhlil edilməsi;

— konkret əsərlərin təhlillərinə istinadən rəssamın özünəxas fərdi yaradıcılıq, bədii üsul və prinsiplərinin araşdırılması;

— əsərlərin ideya-bədii əhəmiyyətinin üzə çıxarılması, bunların tarixi və estetik dəyərinin müəyyən edilməsi və bu xüsu-

---

[3] Миркасимова А.М. Портретный жанр в азербайджанском изобразительном искусстве. Дис…канд. искусствоведения. Баку 2007, 129 с.

siyyətlərin milli təsviri sənət kontekstindəki yerinin qabardılması;

— Oqtay Sadıqzadənin portret yaradıcılığının tədqiqi və təhlili, rəssamın üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

— rəssamın qrafika sahəsindəki əsərlərinin səciyyələndirilməsi, kitab qrafikası ilə bağlı əsərlərinin təhlil edilməsi;

— Oqtay Sadıqzadənin yaradıcılığını bütövlükdə əks etdirmək üçün onun bütün əsərlərinin toplanması və sistemləşdirilməsi.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini xalq rəssamı Oqtay Sadıqzadənin əsərləri, həmçinin rəssamın özü və əsərləri haqqında mətbuat orqanlarında çap olunmuş məqalə və monoqrafiyalar təşkil edir. Tədqiqatın predmetini Oqtay Sadıqzadənin yaradıcılığı, onun əsərlərinin janr, forma, məzmun, üslub, dəsti-xətt göstəriciləri təşkil edir.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqatın metodoloji əsasını sənətşünaslığın elmi-nəzəri müddəaları, dünya və Azərbaycan tədqiqatçılarının təsviri sənət haqqında fikirləri və mülahizələri təşkil edir. Tədqiqat işi yerinə yetirilərkən müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat öyrənilmiş, arxiv sənədləri axtarılaraq təhlil olunmuş, rəssamın əsərlərinin nümayiş etdirildiyi sərgilərin kataloqlarından, Azərbaycan Milli İncəsənət muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin və Azərbaycan Tarix Muzeyinin arxivlərindən istifadə edilmiş, O.Sadıqzadənin yaradıcılığı ilə bağlı mövcud əsərlərdən materiallar ümumiləşdirilərək şərh olunmuşdur. Problemin tədqiqində tarixilik prinsipi və xronoloji ardıcıllıq gözlənilmiş, əsasən tarixi-müqayisəli metoddan istifadə olunmuşdur. Belə ki, problemin tam şəkildə həlli məqsədilə dissertasiyada materialların xronoloji prinsiplə elmi təhlilinin aparılmasına üstünlük verilmişdir.

Tədqiqatın əsas metodunu sənətşünaslıq təhlili təşkil edir. Bu zaman ayrı-ayrı əsərlərin obraz-stilistik, bədii-stilistik və müqayisəli aspektləri üzə çıxarılır. Bu istiqamətdə həyata keçi-

rilən təhlillər Oqtay Sadıqzadənin yaradıcılıq təcrübəsində tipoloji və təkamül əsasında formalaşmış müxtəlif yaradıcı elementlərin daha da qabarıq şəkildə üzə çıxarılmasına imkan verir. Bu prosesdə konkret olaraq analiz və sintez metodlarından istifadəyə üstünlük verilmişdir. Hər iki metodun tətbiqi Oqtay Sadıqzadənin öz əsərlərinin, eləcə də onun yaradıcılığı ilə bağlı və ona yaxın olan sənətkarların əsərlərinin müqayisəli təhlillərinin aparılmasına imkan verir. Xronoloji prinsipə riayət edilməsi sənətkarın yaradıcılıq spesifikasında baş verən dəyişikliklərin izlənilməsi aspektindən əhəmiyyətlidir.

**Tədqiqatın sərhədləri (hüdudları).** Qarşıya qoyulmuş məqsədlərə uyğun olaraq tədqiqat rəssam Oqtay Sadıqzadənin erkən yaradıcılığından başlayaraq müasir günlərimizə qədər bir dövrü əhatə edir. Dissertasiya janr bölgüsü aparılmaqla, xronoloji ardıcıllıq baxımından işlənmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi məhz problemin qoyuluşu ilə müəyyən olunur və aşağıdakı müddəalarda öz əksini tapır:

— tədqiqatda Azərbaycan təsviri incəsənət kontekstində xalq rəssamı Oqtay Sadıqzadənin həyat və yaradıcılığına həsr olunmuş ümumiləşdirici, hərtərəfli nəzəri əsərin yaradılmasına cəhd edilimişdir;

— Oqtay Sadıqzadənin həyat və yaradıcılığı, onun rəssam kimi formalaşmasına təsir göstərmiş tarixi şərait və digər amillər ətraflı tədqiq olunmuşdur;

— Oqtay Sadıqzadənin yaradıcılığının mərhələləri müəyyən olunmuş, əsərləri xronoloji ardıcıllıqla tədqiq olunaraq sistemləşdirilmiş, ümumiləşmələr və nəticələr cıxarılmışdır;

— rəssamın əsərlərinin üslub, janr və icra texnikasına görə təsnifatı aparılmış, portret və qrafika yaradıcılığı geniş və əhatəli tədqiq edilmiş, əsərləri ətraflı təhlil olunmuşdur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat Azərbaycan incəsənət tarxini genişləndirərək Azərbaycan təsviri sənətinin ümumi inkişafında Oqtay Sadıqzadə

yaradıcılığının rolunu, yerini və təzahür formalarını müəyyən etməklə, onun yaradıcılığı haqqında əhatəli mənbədir.

Tədqiqatdan rəssamlıq təmayüllü ali və orta ixtisas təhsili müəssisələrində "Azərbaycan təsviri sənəti tarixi" və "Müasir Azərbaycan incəsənəti tarixi" kurslarnın tədrisində yardımçı material kimi istifadə edilə bilər. Dissertasiya Oqtay Sadıqzadənin yaradıcılığı haqqında yazılmış elmi-tədqiqat işi kimi, bu sahədə çalışan hər bir şəxs və dissertasiyada toxunulan problemlə maraqlanan geniş oxucu kütləsi üçün dəyərli sorğu vəsaitidir.

**Tədqiqatın aprobasiyası**. Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasının iclasında müzakirə edilmiş, mövzu üzrə axtarışları əks etdirən məruzələr müxtəlif səpgili elmi konfranslarda dinlənilmişdir. Tədqiqat işinin əsas məzmunu, elmi müddəa və nəticələri 7, o cümlədən xaricdə cap edilmiş 2 məqalədə öz əksini tapmışdır.

**Tədqiqatın strukturu.** Dissertasiya giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İllüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **giriş** hissəsində mövzunun müasir sənətşünaslıq və mədəniyyətşünaslıq elmi üçün aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodoloji əsasları, tədqiqat metodları, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın **birinci fəsli "Oqtay Sadıqzadənin erkən yaradıcılığının bədii xüsusiyyətləri"** adlanır və iki yarımfəsildən ibarətdir. Burada Oqtay Sadıqzadə yaradıcılığının formalaşmasına təsir göstərən amillər nəzərdən keçirilir və onun

erkən yaradıcılığı təhlil edilir.

Dissertasiyanın I fəslinin **"Oqtay Sadıqzadə yaradıcılığının formalaşmasında sosial-ictimai və bədii mühitin rolu"** adlanan **ilk yarımfəsli**ndə qeyd olunur ki, "Sənətkarı yetişdirən onun böyüyüb, boya-başa çatdığı mühit, cəmiyyətdir" — kimi səslənən məşhur fikrə uyğun olaraq Oqtay Sadıqzadənin yaradıcı insan kimi formalaşmasında bu amilin təkanverici rol oynadığını görmək mümkündür. Xüsusilə, məsələyə bu kontekstdən yanaşdıqda onun yaşadığı uşaqlıq, yeniyetməlik və gənclik çağlarının tarixi, ictimai-sosial şəraiti, ailə-qohumlar mühitinin təsirini görmək mümkündür. O.Sadıqzadənin, məhz yaradıcı şəxsiyyət kimi formalaşmasının genetik əsasları mövcud idi: əvvəla, o Seyid Hüseyn kimi xalqını tərəqqiyə, maarifə, mədəniyyətə səsləyən bir yazıçı və ədəbi tənqidçinin, qəlbi milli azadlıq ideyaları ilə çırpınan Ümmügülsüm xanım kimi bir şairənin müqəddəs ailə ocağında dünyaya göz açmışdır. Rəssam olmasalar da ruhən yaradıcılıq potensialına malik olmuş valideynlərindən sənətkarlığı digər bir formada miras almış Oqtay Sadıqzadənin rəssam kimi yetişməsində tərbiyə aldığı ailə mühiti başlıca rol oynayıb.

Birinci fəslin **"Oqtay Sadıqzadənin erkən yaradıcılığı"** adlanan **ikinci yarımfəslində** qeyd edilir ki, yaradıcılığın istənilən sahəsində xronoloji ardıcıllığın izlənilməsi sənətkarlıq xüsusiyyətlərinin formalaşmasını, inkişaf edərək təkmilləşməsini müşahidə etməyə imkan yaradır. Sənətkarın peşəkarlığa yiyələnməsinin "ibtidaidən aliyə doğru" prinsipinə uyğun olaraq izlənilməsində erkən yaradıcılıq dövrü mühüm əhəmiyyət kəsb edir. 1920-ci illərdə respublikada ilk peşəkar təhsil müəssisəsi kimi fəaliyyətə başlayan Bakı Dövlət Rəssamlıq məktəbi gənc Oqtay Sadıqzadənin sənətkar kimi yetişməsində əhəmiyyətli rol oynamışdır. 1935-ci ildə Bakıda Rəssamlıq Texnikumuna daxil olan Oqtay Sadıqzadə təhsilinin ilk illərində canlı naturadan işləməyin əsaslarını, rəng keçidləri, perspektivin dürüst verilməsi kimi mühüm nəzəri bilikləri mənimsədi. Təhsil illə-

rində dünya rəssamlarının əsərləri ilə tanışlığı, rəssamların ifa texnikalarının sirlərinə bələd olması Oqtay Sadıqzadənin elə erkən yaradıcılığında öz təsirini göstərməyə başladı.

Bu yarımfəsildə Oqtay Sadıqzadənin erkən yaradıcılığını təcəssüm etdirən "Çağırışçılar", "Gəzinti", " Kommunist küçəsi" və "Məktəbli qızlar" əsərləri sənətşünaslıq baxımından təhlil edilir. Bu əsərlərin sənətkarlıq xüsusiyyətlərindən çıxış edərək, gənc olmasına baxmayaraq rəssamın rəngkarlığın nəzəri əsaslarına mükəmməl surətdə bələd olması haqqında mülahizə söyləmək olar. Hələ erkən yaşlarında ikən, müşahidəçilik, hadisələri duymaq qabiliyyətinə malik olması yaratdığı tabloları ideya-süjet baxımından maraqlı və diqqətiçəkən edir ki, bunu da, xüsusilə, Moskvada keçirilmiş sərgidə nümayiş etdirilən "Çağırışçılar" əsərinin nümunəsində görmək olar. Rəssamın yaradıcılığının bu mərhələsi üçün yağlı boya, kətan üzərində işləmə texnikası səciyyəvidir.

Göstərilir ki, təsviri sənət kontekstindən təhlillərə istinadən xalq rəssamı Oqtay Sadıqzadənin erkən yaradıcılığını iki mərhələyə ayırmaq olar. Birinci mərhələyə 1930-cu illərin sonlarından başlayaraq 40-cı illərin birinci yarısını aid etmək olar. Oqtay Sadıqzadənin yaradıcılığının bu mərhələsinin səciyyəvi cəhətləri yaşadığı dövrün ictimai, bədii və ailə mühitinin doğurduğu xüsusiyyətlərlə izah olunur: respublikada peşəkar rəssamlığın əsasının qoyulması; valideynlərinin mənəvi dəstəyi; gənc Oqtay Sadıqzadənin baza rəssamlıq biliklərinə yiyələnməsi; bu bilik və təcrübə əsasında ilk yaradıcılıq işlərini yaratması.

Oqtay Sadıqzadə erkən yaradıcılığının ikinci mərhələsində rəssamlıq fəaliyyətini yeni humanist və optimist ideyalarla davam etdirir.

Dissertasiyanın **ikinci fəsli "Oqtay Sadıqzadənin qrafika yaradıcılığı"** adlanır və iki yarımfəsildən ibarətdir. Bu fəsildə göstərilir ki, "Rəssam, yazıçı, kitab" üçlüyündə zirvədə kitabın məzmunu, əsərin mənəvi atmosferi, onun ideya, həyati və

poetik məzmununun tamlığı, stilistikası durur. İllüstrator – rəssamın müvəffəqiyyətini və ya müvəffəqiyyətsizliyini rəssamın təsvir dilinin ədəbi əsərin xarakteri ilə uzlaşması müəyyən edir. Rəssam öz hisslərini müxtəlif formada – metaforik, realestik, şərti-dekorativ dillərdə ifadə edə bilər. Lakin bu zaman əsas məsələ illüstrasiyanın ədəbi əsərin xarakteri və məzmunu ilə uzlaşmasıdır. Rəssam tərəfindən bu uzlaşmanın və onun ifadə formalarının tapılması çox mühümdür. Dərin mənalı gözəl illüstrasiya ədəbi əsərin yaraşığıdır. O, yazıçının yaratdığı obrazları əyani vasitələrlə oxucunun nəzərinə çatdıraraq əsərin ideya məzmununu dərk etməkdə ona kömək edir.

Oqtay Sadıqzadənin yaradıcılığının yeni mərhələsi 1940-cı illərin sonlarından başlayaraq 50-ci illəri əhatə edir və yaradıcılığının bu mərhələsi təsviri sənətin qrafika növü ilə bağlıdır. Oqtay Sadıqzadənin respublika rəhbərliyi tərəfindən 1955-ci ildə "Azərnəşr"ə baş bədii redaktor vəzifəsinə təyin edilməsi rəssamın kitabın bədii tərtibatı ilə bağlı müasir düşüncələrinin reallığa çevrilməsinə, bununla da ölkəmizdə kitab illüstrasiyasının inkişafına təkan verdi.

II fəslin **"Oqtay Sadıqzadənin qrafika yaradıcılığında dünya ədəbiyyatı mövzusu"** adlanan **birinci yarımfəsli**ndə bildirilir ki, gənc Oqtay Sadıqzadə böyük cəsarət göstərərək illüstrasiya yaradıcılığına hələ uşaqlıq illərindən mütaliə etdiyi rus və Avropa klassiklərinin əsərlərinin təsvirindən başlamışdı. Rəssamın dünya ədəbiyyatının görkəmli nümayəndələrindən rus klassiki İ.S.Turgenevin "Atalar və oğullar" kitabına, Maksim Qorkinin "Artamonovların işi" romanına, görkəmli fransız yazıçısı Onore de Balzakın "Qorio ata" romanına, V.Hüqonun "Səfillər" romanına, türk yazıçısı Rəşad Nuri Güntəkinin "Çalı quşu", Suat Dərvişin "Fosforlu Cevriyyə" romanlarına çəkdiyi illüstrasiyalar sənətşünaslıq kontekstindən təhlil edilir, onların üslub xüsusiyyətləri, bədii təsvir vasitələri izah edilir. Eyni zamanda O.Sadıqzadənin S.Turgenevin "Atalar və oğullar" kitabına çəkdiyi illüstrasiyaların təhlili zamanı məlum olur ki,

İ.P.Boklevski (1870, 1880), V.Perov (1878), K.Rudakov (1948-1949) kimi görkəmli rəssamlar artıq bu əsərə illüstrasiyalar işləmişlər. Rəssamın Maksim Qorkinin “Artamonovların işi” romanına çəkdiyi illüstrasiyaların SSRİ Xalq Rəssamı, görkəmli sovet illüstratoru D.A.Şmarinovun eyni adlı əsərə çəkdiyi illüstrasiyaları ilə müqayisəli təhlili aparılır, oxşar və fərqli cəhətləri göstərilir.

“Səfillər” romanına çəkdiyi illüstrasiyaların təhlili zamanı məlum olmuşdur ki, O.Sadıqzadə P.N.Pinkiseviç, A.İ.Konstantinovski, xarici rəssamlardan Qustav Brionun (1864) həmin əsərə çəkdiyi illüstrasiyalar ilə yaxından tanış olmaqla orijinal illüstrasiyalar çəkmişdir. Rəssamın “Səfillər” romanına çəkdiyi silsilə illüstrasiyaları Azərbaycan qrafika sənətində mühüm hadisələrdən biri kimi qiymətləndirilməlidir.

II fəslin **ikinci yarımfəsli “Azərbaycan ədəbiyyatı Oqtay Sadıqzadənin qrafika yaradıcılığının obyekti kimi”** adlanır. Bu yarımfəsildə Azərbaycan ədəbiyyatından İmran Qasımov və Həsən Seyidbəylinin “Uzaq sahillərdə” povestinə, görkəmli yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin “Danabaş kəndinin əhvalatları” əsərinə, Nəsiminin əsərlərinə, Hüseyn Cavidin “Səyavuş”, “İblis”, “Afət” pyeslərinə, atası Seyid Hüseynin “Yatmış kəndin qış gecələri”, “Yeni həyat yollarında”, Sarıköynək” əsərlərinə çəkdiyi illüstrasiyalar təhlil edilir, onların sənətkarlıq xüsusiyyətləri işıqlandırılır.

Xalq rəssamı Oqtay Sadıqzadənin qrafika əsərlərinin təsviri sənət kontekstindən təhlili bu istiqamətin onun yaradıcılığında xüsusi bir yer tutduğunu sübuta yetirir. Kitab qrafikası sahəsindəki fəaliyyətinin ən məhsuldar dövrü hesab edilən 1949-80-ci illərdə rəssam Oqtay Sadıqzadə Azərbaycanda illüstrasiya sənətinin inkişafı, xüsusilə, süjetli illüstrasiyaların çəkilməsi, bu rəsmlərin müxtəlif ifa texnikalarında həyata keçirməsi ilə milli təsviri incəsənət tarixində əvəzedilməz xidmət göstərmişdir. İllüstrasiya yaradıcılığının ilkin çağlarında o, klassik rus və dünya ədəbiyyatının görkəmli əsərlərinə illüstrasiyalar çək-

məklə peşəkarlığını inkişaf etdirmiş və bu sahədə, hətta görkəmli dünya və rus illüstratorlarından geridə qalmadığını sübut etmişdir. İllüstrasiya yaradıcılığına xarici ədəbiyyatın şah əsərlərinin tərtibatından başlayan gənc rəssam Oqtay Sadıqzadə, milli kitab qrafikasının yeni və müasir tələblər əsasında inkişaf etdirilməsinə təsir göstərmiş, eyni zamanda rəsm mədəniyyətinə, qrafika sənətinə dərindən yiyələnmiş qrafika ustası, kamil illüstrator kimi təkmilləşmişdir.

Dissertasiyanın **III fəsli "Oqtay Sadıqzadənin portret yaradıcılığı"** adlanır. Bu fəslin **"Oqtay Sadıqzadənin portret yaradıcılığında ədəbi simalar"** adlanan **birinci yarımfəslin**də qeyd edilir ki, rəssamın gerçəkliyə olan münasibəti onun müxtəlif janrlarda yaratdığı əsərləri ilə ifadə edilir. Sözsüz ki, bu janrlardan biri aparıcı olmaqla rəssamın mənəvi dünyasına daha yaxın olur. O.Sadıqzadənin yaratdığı portretlər qalereyasına nəzər salsaq əminliklə deyə bilərik ki, onun üçün bu portret janrıdır. Rəssamın portretlər qalereyasında ədəbi simalar silsiləsindən yazıçı və şairlərin, dramaturqların, ictimai-siyasi xadimlər, elm və mədəniyyət xadimləri və zəhmətkeşlərin obrazları xüsusi yer tutur. Ədəbiyyata olan böyük məhəbbət xalq rəssamının Azərbaycanın tanınmış ədəbi simaları, görkəmli şair və yazıçılarının surətlərindən ibarət portretlər yaratmasına səbəb olmuşdur. Ədəbiyyatçılar ailəsində doğulan, erkən yaşlarından ədəbi mühitin sehrinə düşən Oqtayın belə dolğun portretlər yaratması təsadüf yox, yəqin ki, zərurətdir Rəssam tərəfindən Azərbaycanın tanınmış ədəbi simaları - M.F.Axundovun, M.Ə.Sabirin, Qətran Təbrizinin, şairə Qönçəbəyimin, Xurşudbanu Natəvanın, anası Ümmügülsüm xanımın, böyük şairimiz H.Cavidin, xalq şairi Səməd Vurğunun portretləri bu yarımfəsildə təsviri sənət kontekstindən geniş təhlil edilir.

Oqtay Sadıqzadənin çəkdiyi bir sıra portretlərin tanınmış Azərbaycan rəssamlarından Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Nəcəfqulu İsmayılov, Altay Hacıyev, Tahir Salahov, Elbəy Rzaquliyev və b. çəkdiyi portretlərlə müqayisəli

təhlili aparılır.

Dissertasiyanın III fəslinin digər yarımfəsli **“Oqtay Sadıqzadənin portret yaradıcılığında ictimai-siyasi xadimlər, elm və mədəniyyət xadimləri, əmək adamlarının obrazları”** adlanır. Burada ümummilli lider H.Əliyevin, Kraliça II Yelizavetanın, tanınmış aktrisa Şəfiqə xanım Məmmədovanın, Həbibulla Şahtaxtinskinin, Azərbaycan Respublikasının Xalq artisti, görkəmli müğənni Fidan Qasımovanın, Almaniyalı göz həkimi xanım Marion Marre və qızı xanım Marrenin, görkəmli şair Hüseyn Cavidin həyat yoldaşı Mişkinaz xanımın, pambıqçı Səmayə Tatanovanın, “Lənkəran qızları” silsiləsinə aid olan çayçı qızlar “Rəhimova və Bayramovanın portrerti”, “Kolxozçu qadınlar” silsilə portretləri təhlil edilir, onların sənətkarlıq xüsusiyyətləri araşdırılır.

Qeyd edilir ki, rəssam insanın xarakterini dərindən və hərtərəfli işıqlandırmaq üçün daha ifadəli kompozisiya və kolorit hədləri axtarır. Hərtərəfli müşahidə və onların nəticələrini bədii ümumiləşdirmə qabiliyyətinə malik rəssam daima özünəməxsus təsvir və ifadə vasitələri taparaq obrazların daxili ekspressivliyini qabarıq şəkildə verməyə nail olur.

Xalq rəssamı Oqtay Sadıqzadənin yazıçı və şairlər, dramaturqlar, ictimai-siyasi, elm və mədəniyyət xadimləri, zəhmətkeşlər silsiləsinə daxil olan portretlərinin sənətşünaslıq təhlilləri sənətkarın real obrazların olduğu kimi təsvirinə üstünlük verdiyini göstərir. Öz qəhrəmanlarının daxili və ruhi aləmlərini bu reallığın fonunda müxtəlif ifadə vasitələri ilə qabartması rəssamın portret janrındakı yaradıcılığının əsas sənətkarlıq xüsusiyyətlərindəndir. Rəssamın portretlərindəki rəng qamması həmişə təsvir olunan insanın emosional vəziyyəti ilə şərtlənir. Xüsusilə, o, obrazlarının bədii mahiyyətini, psixoloji durumlarını, ruhi hallarının parlaq tünd rəng fonunda təsvirinə daha çox üstünlük verir. Müəllif tünd rəng fonunda kolorit aksentlərinin qabardılmasından kompozisiyanın dinamikliyini yüksəltmək vasitəsi kimi istifadə edir. Eyni zamanda, portretlərdəki kom-

pozisiyaların bütövlüyü, nizamlılıq (mütənasiblik), rənglərin harmoniyası bu portretlərin rəngkarlıq ifadəliliyini artırır.

Dissertasiyanın III fəslinin **“Oqtay Sadıqzadə yaradıcılığında Nizami Gəncəvi mövzusu”** adlanan **III yarımfəslin**də qeyd edilir ki, 1991-ci ildə Azərbaycanın dünya şöhrətli klassik şairi Nizami Gəncəvinin 850 illik yubileyinin beynəlxalq səviyyədə qeyd edilməsi ilə əlaqədar qərarın qəbul edilməsi ədəbiyyatçılar və rəssamlar qarşısında ciddi və məsul vəzifələr qoydu. YUNESCO-nun yubileylə bağlı xüsusi qərarına əsasən şairin vətəni olan Azərbaycanda bu ümumdünya əhəmiyyətli tədbirə hazırlıq istiqamətində məqsədyönlü və sistemli şəkildə işlər həyata keçirilməyə başlandı. Nizami Gəncəvi adına Ədəbiyyat muzeyi bu sahədə daha fəal iş aparırdı. Bu məqsədlə muzeydə “Nizami və Nizamişünaslıq” zalı açıldı və zalın tərtibatı üçün müvafiq əsərlərin yaradılması zərurəti ortaya çıxdı. Müzeyin o vaxtkı direktoru, filologiya üzrə elmlər doktoru, professor, əməkdar elm xadimi Arif Hacıyev beş hissədən ibarət “Nizami Gəncəvi və dünya mədəniyyəti” adlı kompozisiyanın yaradılmasını təklif edir və O.Sadıqzadə ilə birgə “Nizami Gəncəvi və dünya mədəniyyəti” adlı monumental silsilənin birbiri ilə əlaqəli beş hissədən ibarət olmasına qərar verirlər. Müəllif onları aşağıdakı kimi adlandırmışdır: “Qədim Yunanıstan filosofları”, “Nizami və onun Şərq sələfləri”, “Nizaminin davamçıları”, “Avropa mədəniyyət xadimləri”, “Nizami və Azərbaycan mədəniyyəti”.

Burada həmin silsiləyə daxil olan tabloların sənətşünaslıq baxımından təhlili aparılır, O.Sadıqzadənin portret yaradıcılığının xüsusiyyətləri işıqlandırılır, bədii sənətkarlıq keyfiyyətləri göstərilir.

Azərbaycanın xalq rəssamı Oqtay Sadıqzadə yaradıcılığının təsviri sənət kontekstindən tədqiqinə həsr olunmuş bu dissertasiya görkəmli sənətkarın geniş diapazonlu fəaliyyətinə həsr olunmuş ilk fundamental elmi tədqiqatdır. Sənətkarın şəxsi arxivi və müsahibələri, respublika muzey və qalereyalarında

nümayiş və mühafizə olunan əsərlərinə, onun haqqında yazılmış elmi və publisistik məqalələrə istinadən problemin həlli ilə bağlı aparılan dərin araşdırma və təhlillər bəzi ümumi **nəticə**lərin çıxarılmasını mümkün edir:

**1.** Oqtay Sadıqzadənin rəssam kimi formalaşmasına təsir göstərən amillər ictimai-sosial mühitlə bağlıdır. Oqtay Sadıqzadənin rəssam kimi formalaşmasında yaradıcılığının ilkin çağlarını əhatə edən illərin ictimai-sosial mühitinin xüsusiyyətlərinin təhlili bunların rəssamın fəaliyyətində iki istiqamətdə təzahür tapdığını sübut edir. Bunlardan birincisini rəssamın doğulduğu ailə-şəcərə, ikincisini isə, Azərbaycan tarixinin mürəkkəb və ağır tarixi şərait amilləri təşkil edir. Bu amillər bir-birindən təcrid olunmuş şəkildə deyil, vəhdət halında mövcud olublar.

Sağlam və demokratik düşüncəli, milli ruhlu valideynlərindən və qohumlarından ən ali ideyaları mənimsəmiş Oqtay Sadıqzadə bunları peşəkarlığı, vərdiş və bacarıqları ilə üzvi şəkildə birləşdirməyə çalışsa da buna yaşadığı "stalinizm" epoxasının sərt normaları ciddi şəkildə mane olurdu. Hər mənada bu zamanı özü üçün "sınaq dövrü" seçən Oqtay Sadıqzadə sevdiyi sənət naminə hər bir neqativ hadisəyə dözməli oldu. Valideynlərinin və sevdiklərinin həyat faciəsi, öz sənətkarlıq potensialını tam realizə etmək imkanlarından məhrum olması bu neqativliklərə aid idi.

**2.** Oqtay Sadıqzadənin sənətkarlıq xüsusiyyətlərinin formalaşaraq təkmilləşməsində onun, məhz gənclik illərini əhatə edən erkən yaradıcılığı mühüm yer tutur. Erkən yaradıcılığının məhsulu sayılan "Cağırışçılar" adlı əsərinin 1940-cı ildə Moskvanın dünya şöhrətli muzeyi Tretyakov qalereyasında adlı-sanlı rus rəssamları Boris İoqanson, Sergey Gerasimov, Pyotr Konçalovski kimi rəssamların əsərləri ilə birgə nümayiş etdirilməsi onun gələcək peşə taleyini müəyyən etdi. Bu, gənc rəssamın erkən yaradıcılığındakı ən böyük uğuru idi. Lakin sənət uğurları ilə yanaşı, gənc rəssamı acı tale də müşayiət edirdi. Bir tərəfdən Böyük Vətən müharibəsi, digər tərəfdən, şəxsi ailəsin-

də yaşanılan faciələr gənc rəssamın sənətə həvəsini, ehtirasını söndürmədi. Əksinə, həyatının müəyyən məqamlarında çəkdiyi bu acılar, faciələr onun kamil və klassik sənətkar kimi təkmilləşməsinə əhəmiyyətli dərəcədə təsir göstərdi.

Oqtay Sadıqzadənin erkən yaradıcılığını təcəssüm etdirən "Gəzinti", "Çağırışçılar", "Kommunist küçəsi" və "Məktəbli qızlar" əsərlərinin sənətkarlıq xüsusiyyətlərindən çıxış edərək, gənc olmasına baxmayaraq, rəssamın rəngkarlığın nəzəri əsaslarına mükəmməl surətdə bələd olması haqqında qəti fikir söyləmək olar.

**3.** Sadıqzadənin erkən yaradıcılığının ikinci mərhələsi isə, 1946-cı ildən başlayaraq 1950-ci illərin əvvəllərini əhatə edir. Oqtay Sadıqzadənin yaradıcılığının bu mərhələsi təsviri sənətin qrafika növü ilə bağlıdır.

1950-ci illərdə Azərbaycanda təsviri incəsənət sahəsində əldə olunan uğurların böyük hissəsi, məhz kitab qrafikası ilə bağlı idi. Kitab qrafikasının ən populyar növü sayılan illüstrasiya sənəti haqqında bəhs etdiyimiz tarixi dövrün daha çox inkişaf edən sənət növü idi. İllüstrasiyalar vasitəsilə bədii əsərin emosional qayəsinin çatdırılmasını, qəhrəmanların obrazlarının vizuallaşdırılmasını, kitabda mətnin dili ilə təsvir edilənlərin nümayişini həyata keçirtmək mümkündür. İllüstrasiya sənətinin bu özünəməxsusluğu gənc rəssam Oqtay Sadıqzadəni çox maraqlandırdığından yaradıcılığının növbəti mərhələsini, məhz bu sahəyə yönəltmək onun fəaliyyətinin başlıca motivinə çevrildi.

Rəssamın illüstrasiya yaradıcılığındakı başlıca ifa texnikasını sulu boya, kömür, karandaşla realist manera təşkil edirdi. Formatına görə isə, daha çox səhifəlik illüstrasiyalara üstünlük verirdi. İllüstrasiyaların təhlili sübut edir ki, rəssam Oqtay Sadıqzadənin kitab qrafikası üzrə sənətkarlığının başlıca məziyyətlərinə aşağıdakılar daxildir:

— ədəbi əsərin mahiyyət və ideyasını dərindən dərk etmək;
— ədiblərin fərdi sənətkarlıq keyfiyyətlərinin müqayisəli

təhlilinə üstünlük vermək;

— ədəbi qəhrəmanların bədii-estetik, fəlsəfi mahiyyətini araşdırmaq;

— oxucuların marağını duymaq və ədəbi əsərlərdəki obraz və hadisələri düzgün seçmək;

— təkcə ədəbi mətnin deyil, eləcə də illüstrasiya sənətinin mahiyyətini qabartmaq məqsədilə bütün bədii imkanlardan maksimum istifadə etmək;

— ədəbi mətndəki obraz və hadisələrin, mühüm məqamların vizuallaşdırılması məqsədilə müvafiq və aydın kompozisiyanın həllinə nail olmaq;

— illüstrasiyada təsvir dilini ədəbi əsərin xarakteri və məzmunu ilə uzlaşdırmaq;

— rəng kompozisiyasının seçimi prosesində ədəbi mətnin, personajların və cərəyan edən hadisələrin ümumi ruhunun vəhdətdə götürülməsinə üstünlük vermək.

Beləliklə, xalq rəssamı Oqtay Sadıqzadənin qrafika əsərlərinin təsviri sənət kontekstindən təhlili bu istiqamətin onun yaradıcılığında xüsusi bir yer tutduğunu sübuta yetirir.

**4.** Tədqiqat zamanı müəyyən olundu ki, xalq rəssamı Oqtay Sadıqzadənin yaradıcılığında portret janrı xüsusi və əhəmiyyətli bir istiqamət kimi formlaşmışdır. Yaratdığı portretlər qalereyası ilə yaxından tanış olduqda onun fırçasından doğan obrazları bir neçə növə təsnif etmək olar. Bunlara, ilk növbədə öz doğmaları və dostları, daha sonra isə, görkəmli dövlət xadimləri və ictimai xadimlər, sənət və ədəbiyyat simaları aiddir.

Rəssamın portretlər qalereyasında ədəbi simalar silsiləsindən yazıçı və şairlərin, dramaturqların obrazları xüsusi yer tutur. Milli mədəniyyətə olan böyük məhəbbət xalq rəssamının Azərbaycanın tanınmış ədəbi simaları, görkəmli şair və yazıçılarının portretlərini yaratmasına səbəb olmuşdur. Hətta bunu da yəqinliklə söyləmək olar ki, Oqtay Sadıqzadə bir rəssam kimi bu yazıçı və şairlərin obrazlarını yaratmaqla püxtələşmişdi.

Rəssamlar üçün öz mənəvi və intellektual siması, davranış

və hərəkətləri, düşüncə tərzləri ilə seçilən və tanınan tarixi şəxsiyyətlər daima başlıca təsvir obyekti olmuşlar. Xalq rəssamı Oqtay Sadıqzadə də bu silsilədən kifayət qədər məşhur portretlər yaratmışdır. Rəssamın tarixi şəxsiyyətlər silsiləsinə daxil etdiyi siyasi liderlərin portretləri müstəsnalıq təşkil edir: Heydər Əliyev, İngiltərənin kraliçası II Yelizaveta və başqaları. Rəssamın portretin bu növünə müraciət etməsi iki mühüm amillə izah olunur: birincisi, xalq kütləsinin öz siyasi liderlərinə olan hörmət və ehtiramı, ikincisi isə, rəssamın şəxsi yaradıcılıq istəyi.

Mədənyyət və incəsənət nümayəndələrinin obrazları Oqtay Sadıqzadənin portretlər qalereyasında xüsusi yer tutur: aktrisa Şəfiqə Məmmədova, müğənni Fidan Qasımova, H.Cavidin həyat yoldaşı Mişkünaz xanım. Bir portret ustası kimi Oqtay Sadıqzadənin diqqətini ictimai-tarixi şəxslərlə, ədəbi simalarla yanaşı zəhmət adamlarının surətləri də cox cəlb edir. Bu silsilədən "Kolxozçu qadınlar", "Səmayə Tatanova", "Lənkəran qızları" portretlərini nümunə göstərmək olar.

Müxtəlif silsilədən olan portretlərin təhlili rəssamın portret yaradıcılığını aşağıdakı kimi səciyyələndirməyə imkan yaradır: rəssam çəkdiyi portretlərdə şəxsiyyətin mənəvi aləmini, onun daxili dünyasının qabardılmasını önə çəkmək məqsədilə rəng kompozisiyası, qəhrəmanların real cizgilərinin təsvirinə üstünlük verir. Rəssam istər qrup, istərsə də tək portretlərdə modelin siması ilə xarakteri arasında vəhdətin yaradılmasına xüsusi bacarıqla nail olur. Xüsusilə, tarixi portretlərdə qəhrəmanların yeni, indiyədək məlum olmayan keyfiyyətlərinin axtarışı diqqəti cəlb edir. Ziyalıların, mədəniyyət xadimlərinin obrazlarında isə, lirizm motivi üstünlük təşkil edir.

Xalq rəssamı Oqtay Sadıqzadənin yaradıcılığının təsviri sənət kontekstindən araşdırılaraq tədqiq olunması onun sənətkarlığının daha çox qrafika və portret janrı istiqamətlərində inkişaf etdiyini elmi cəhətdən sübut edir. Oqtay Sadıqzadə bu istiqamətləri yüksək səviyyədə təmsil etməklə müasir Azərbaycan

təsviri sənətinin zənginləşməsinə xidmət etmişdir.

Beləliklə, tədqiqatın gedişində əldə olunmuş nəticələr həm nəzəri, həm də praktik əhəmiyyətə malikdir.

**Dissertasiyanın əsas müddəaları və məzmunu çap olunmuş aşağıdakı materiallarda öz əksini tapmışdır:**

1. "Oqtay Sadıqzadə yaradıcılığının formalaşmasına sosial-ictimai mühitin təsiri”// ADMİU “Elmi əsərlər”. Bakı 2011, № 23, səh 140-144.
2. "Oqtay Sadıqzadənin portret yaradıcılığında ədəbi simalar silsiləsi: X.B.Natavan" // ADMİU “Mədəniyyət dünyası” 2011 XXII, səh 158-161.
3. "Образы женщин труда в творчестве Октая Садых-заде" //КНЦНАУиМОиНУ.ТНУ-им В.И.Вернадского. «Культура народов Причерноморья», №243, 2012 г., стр 132-134.
4. "Низами Гянджеви в творчестве Октая Садых-заде" Культура Как Основной потенциал формирования положительного имиджа Кавказа //Материалы Международной научно-практической конференции. МОиН РФ ФГБОУ ВПО.Пятигорск 25-26 октября 2012 г., стр.320-324.
5. "O.Sadıqzadənin portret yaradıcılığında ədəbi simalar silsiləsi" //Təsviri və dekorativ-tətbiqi sənət məsələləri, Bakı, 2013 mart, №1, səh.10-17.
6. "Rus ədəbiyyatı O.Sadıqzadənin qrafika yaradıcılığında" //Mədəni həyat, Bakı 2013 , №5, səh.74-78.
7. "Azərbaycan ədəbiyyatı nümunələri Oqtay Sadıqzadənin qrafika yaradıcılığında"// Mədəniyyət və Turizm nazirliyi, "Müasir mədəniyyətşünaslıq", Bakı, 2013, № 3, səh.86-89.

**Рима Мубариз кызы Гафарзаде**

# ТВОРЧЕСТВО ОКТАЯ САДЫХ-ЗАДЕ В КОНТЕКСТЕ АЗЕРБАЙДЖАНСКОГО ИЗОБРАЗИТЕЛЬНОГО ИСКУССТВА

## Резюме

Диссертационная работа посвящена творческой биографии заслуженного деятеля искусств, народного художника Азербайджана Октая Садых-заде. В контексте изобразительного искусства Азербайджана проанализированы и охарактеризованы особенности графического и портретного творчества О.Садых-заде, отличающегося тематическим и жанровым разнообразием, а также своим индивидуальным стилем.

В введении диссертации обосновываются актуальность темы, цель и задачи исследования, формулируются объект и предмет исследования, определяется степень изученности проблемы, указываются методологические основы и методы исследования, научная новизна, теоретическая и практическая значимость.

В первой главе диссертации "Художественные особенности раннего творчества О.Садых-заде" обсуждается его формирование как личности, так и художника, рассматривается его мастерство в ранних картинах как «Отправка призывников», «Прогулка», «Улица Коммунистическая», «Школьницы».

Во второй главе «Графическое творчество О.Садыхзаде» представлен анализ иллюстраций к таким произведениям мировой литературы как «Отцы и дети» И.С.Тургенева, «Дело Артамоновых» М.Горького, «Отец Горио» О.Бальзака, «Отверженные» В.Гюго, «Королек – птичка певчая» Р.Н.Гюнтекина, «Фосфорическая Джеврие» С.Дервиш, «На дальних берегах» И.Касымова и Г.Сейидбейли, «Истории села Данабаш» Дж.Мамедкулизаде, «Дьявол», «Афет» Г.Джавида, к лирике Насими, а также рассказам своего отца Сеид Гусейна.

В третьей главе диссертации «Портретное творчество О.Садых-заде» разбирается целая галерея портретов знаменитых литераторов, ученых и деятелей культуры, общественно-политических деятелей, людей труда, а также портреты на тему произведений Низами Гянджеви.

В заключительной части диссертации отражены общие выводы исследования, отмечены полученные результаты, размещен список использованной литературы. Альбом иллюстраций представлен как приложение к диссертации.

**Rima Mubariz Qafarzadeh**

## Oktay Sadikh-zadeh's Creativity in the Context of the Fine Arts of Azerbaijan

### Summary

The given dissertation describes the creative biography of the Honoured Art Worker, the People's Artist of Azerbaijan Oktay Sadikh-zadeh, distinguished diversity of subject matter and genre, individual style and methods. The features of graphic and portrait creativity of O. Sadikh-zadeh are analyzed and characterized in the context of the fine arts of Azerbaijan.

The Introduction of the dissertation highlights the theme urgency, the purpose and the focus of research, the object and subject of research, the degree of a level of comprehensiveness of a research problem, the methodological background and research methods, the scientific novelty, the theoretical and practical importance of the given dissertation.

Chapter 1 of the dissertation "The Artistic features of early creative activity of O. Sadikh-zadeh" characterizes the factors influencing his formative years as an artist. The research reveals his artistic skill considering his early paintings such as "Army departure", " Kommunist street","Walk(ing)", "Schoolgirls".

Chapter 2 of the dissertation "The Graphic creativity of O. Sadikh-zadeh" concerns the analysis of the illustrations for well-known literary works of the world such as "Fathers and Sons" by I.S.Turgenev, "The Artamonov Business" by M.Gorky, "The Miserable" by V.Hugo, "On Distant Shores" by I.Kasimov and H.Seyidbeyli, "The Wren" by R.N.Guntekin, "Phosphoric Cevriye" by Suat Dervish, "The Stories of Danabash Village" by Jalil Mammedquluzadeh, "The Devil" by Huseyn Javid, for works by Nasimi and the painter's own father Seid Huseyn Sadikh-zadeh.

Chapter 3 of the dissertation "The Portrait creativity of O. Sadikh-zadeh" covers the whole gallery of portraits of celebrities such as literary, art and cultural workers, scientists, social and political figures, working people as well as portraits on Nizami Genjevi's works.

The Conclusion of the dissertation summarizes the significant outcomes of the research, interpretes the obtained inferences, represents the bibliography used.

**Министерство Образования Азербайджанской Республики**
**Азербайджанская Государственная Академия Художеств**

***На правах рукописи***

**РИМА МУБАРИЗ КЫЗЫ ГАФАРЗАДЕ**

# ТВОРЧЕСТВО ОКТАЯ САДЫХ-ЗАДЕ В КОНТЕКСТЕ АЗЕРБАЙДЖАНСКОГО ИЗОБРАЗИТЕЛЬНОГО ИСКУССТВА

Специальность: 6215.01 – Изобразительное искусство

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой
степени доктора философии в области
искусствоведения

**БАКУ – 2013**